# NAFTALAN



*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

www.naftalan-ih.gov.az

№ 13-14 (429) • 30 iyun 2020-ci il • Qiyməti 90 qəpik


## MİLLİ QURTULUŞ – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993

# 15 iyun - Azərbaycanın şanlı tarixi

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Ulu Öndər Heydər Əliyev olmuşdur.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında



gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu məhz Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün xarici və daxili maneələrə baxmayaraq qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Ulu Öndər Heydər Əliyevin qətiyyətinin, uzaqgörənliyinin qarşısında aradan qaldırılması mümkün olmayan məsələ yox idi. Bu mənada 1993-cü ildən sonra cərəyan edən siyasi-ictimai, iqtisadi proseslər bütün sahələrdə inkişafa doğru dönüş yaradılması həqiqətəndə ölkəmizə, milli mənafelərimizi əldə rəhbər tutan qətiyyətli liderin, əsil siyasətçinin rəhbərlik etməsindən xəbər verirdi. O siyasətçidən ki, üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevirilişi cəhdlərinə baxmayaraq Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən qurtardı. Heydər Əliyevin prezident seçilməsi isə Azərbaycanda tamamilə yeni bir ictimai-siyasi münasibətlər sisteminin bərqərar edilməsinə, nəhayət ümumxalq maraqlarının gerçəkləşməsinə xidmət edən proseslərin start götürməsinə səbəb oldu. Xalqın özünə inamını, sabaha nikbin baxışlarını bərpa etdi, dövlətçiliyimizin əsasını təmin edən ictimai-siyasi sabitliyin əsasını qoydu. İlk dəfə Prezident seçildikdən sonra andiçmə mərasimində Ulu Öndər Heydər Əliyev belə bir söz söyləmişdi: "Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram". Həqiqətən zaman bu deyilənləri sübut etdi, daha doğrusu Ulu Öndər Heydər Əliyev öz yorulmaz fəaliyyəti, canı-qanı bahasına, çəkdiyi minbir əziyyətlə buna nail oldu.

Ardı 2-ci səhifədə

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov “15 İyun - Milli Qurtuluş Günü”nə həsr olunmuş videokonfrans keçirib

Videokonfrans formatında keçən tədbiri açan şəhər rəhbəri qeyd edib ki, Azərbaycanın tarixində elə günlər var ki, həmin günlər xalqımızın gələcək taleyinin müəyyən olunmasında böyük başlanğıcların əsasını qoyub.

Tarixi hadisələrlə zəngin belə günlərdən biri 15 iyun 1993-cü il tarixidir. Xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil olan bu gün təqvimdə, sadəcə, bir bayram günü deyil, ictimai, siyasi, tarixi hadisələrlə zəngin bir gündür. Ümummilli lider Heydər Əliyev 1993-cü il 15 iyun tarixində xalqın xahişi ilə Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan, inkişafdan danışmaq olmazdı. Ulu Öndər öz həyatını böyük risklərə atmasına baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkəmizdə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş



müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Bu mühüm tarixi gün xalqımızın yaddaşına və tarixinə Milli Qurtuluş Günü kimi qızıl hərflərlə həkk olundu və rəsmi bayram kimi qeyd olunur.

Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan icra başçısı həmin siyasətin bu gün möhtərəm Prezident cənab İlham Əliyev və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyeva tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Tədbirdə ŞİHB-nın müavini Arzu Məmmədov, aparatın əməkdaşı Kəmalə Hüseynova, şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələr Tural Məmmədov və Arzu Mustafayev Milli Qurtuluş Günü ilə bağlı çıxış ediblər.

**Aytən ƏLİYEVA,**
**“Naftalan” qəzetinin redaktoru**

# 15 iyun - Azərbaycanın şanlı tarixi

Əvvəli 1-ci səhifədə

Ulu öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik və dünyəvi bir dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 iyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olub.

Ulu Öndər Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilib. Ulu Öndər Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Bir mənalı əminliklə demək olar ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Möhtərəm Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Cənab Prezidentin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir xarici vətəndaş ölkəmizdə gedən inkişafa heyran qalır. Azərbaycan digər ölkələrin əsrlərlə keçdiyi yolu qısa müddət ərzində çətinliklərlə qarşılaşsada bir neçə ilə keçib. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları işığında Möhtərəm Prezident İlham Əliyevin və Birnci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

**Ayxan ƏSGƏROV,**
**YAP Naftalan şəhər təşkilatı Gənclər Birliyinin sədri**

# Dövlətimizin başçısına yazırlar: Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu öz əməli işlərinizlə sübut edirsiniz

**Naftalan şəhər sakini Adilə Bağırova:** "Möhtərəm cənab Prezident, Sizin Tərtər rayonuna səfəriniz zamanı Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edərkən maskadan istifadə etməyiniz hər bir Azərbaycan vətəndaşı üçün nümunədir. Hər bir vətəndaş öz şəxsi məsuliyyətini dərk etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməlidir. Həmçinin həftə sonları tam qapanma vətəndaşların sağlamlığını qorumaq məqsədi daşıyır. Bu ağır vəziyyətdə ölkəmizdə görülən işlərə, bütün sosial-iqtisadi layihələrin həyata keçirilməsinə və hər zaman Azərbaycan vətəndaşının yanında olduğunuza görə kurort şəhərimiz Naftalanın sakinləri adından Sizə sonsuz məhəbbətimizi və hörmətimizi bildirirəm. Ulu Tanrı Sizi, ailənizi və millətimizi qorusun!".

# 96 saylı Goranboy-Naftalan DSK-nın seçiciləri millət vəkili Anar Məmmədova müraciət etdi



Milli Məclisin 96 saylı Goranboy-Naftalan seçki dairəsindən deputatı Anar Məmmədov seçicilərinin suallarını cavablandırmaq, təkliflərini və problemlərini dinləmək məqsədilə videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib. Ölkədə elan edilmiş karantin rejimi ilə əlaqədar vətəndaşlarla birbaşa ünsiyyət imkanları məhdud olsa da, millət vəkili seçicilərini diqqətdən kənarda qoymayır. Video qəbulda deputat seçicilərin bir sıra məsələlərlə əlaqədar müraciətlərini dinləyib. Seçicilərin müraciətləri, əsasən, sosial məsələlər, mənzil-şəraiti, kommunal problemlər və s. məsələlərlə bağlı olub. Bundan öncəki video qəbullarda seçicilər tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq dövlət qurumlarına sorğular göndərilib, bir qisim məsələlər isə artıq öz həllini tapıb.

Qeyd edək ki, görüşdə Goranboy rayon İcra Hakimiyyəti və Naftalan şəhər İcra Hakimiyyətinin nümayəndəsi də iştirak edib. Seçici müraciətlərində əksini tapan bəzi məsələlər yerli xarakterli olduğundan baxılması üçün İcra Hakimiyyəti nümayəndələrinə yönləndirilib.

Sonda deputat seçicilərinə müraciət edərək ölkədə tətbiq olunan karantin rejiminə əməl etməyə çağırdı.

# Naftalan şəhərində ölkəmizdə və regionda ilk "Little Free Library" kitabxanası açılıb



Əsasən Avropa və Amerika qitələrində müxtəlif yaş kateqoriyalarında böyük oxucu kütləsi qazanmış "Little Free Library" artıq doğma Naftalanımızda şəhər əhalisinin və şəhərimizə təşrif buyuran yerli və xarici turistlərin ixtiyarına verilibdir.

Kitabxana www.littlefreelibrary.org Kitabxanalar reyistrinə düşərək unikal #100833 nişanı altında fəaliyyət göstərəcək və ölkəmiz həmin saytın xəritəsində ölkələr sırasında yer almışdır.

Əsas məqsəd əhali arasında kitaba daha çox bağlı olmaq və maarifləndirməkdir. Mini kitabxana pulsuz fəaliyyət göstərir və günün istənilən saatında hər bir nəfər üçün nəzərdə tutulubdur. Xatırladaq ki, "İ Love Naftalan" adlanan həmin bölmə regionda ilk kəs məhz Azərbaycanda - kurort şəhəri Naftalanda açılıbdır. Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə yaradılan bu kitabxananın fəaliyyətinə şəhərdə fəaliyyət göstərəcək "Park Hotel Naftalan" dəstək olmuşdur. Burada hər bir oxucunun mütaliəsi üçün lazım olan kitabların məqsədyönlü şəkildə seçilməsinə kömək göstəriləcəkdir. Bütün bunlar əhalinin intellektual tələbatının ödənilməsi üçün mütaliənin sosial zərurətə çevrilməsini şərtləndirən amillərdəndir.

Kiçik kitabxanada Azərbaycan dili ilə yanaşı rus, ingilis və türk dillərində hər yaşa uyğun kitablar sərgilənəcəkdir.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan fəalları "15 iyun - Milli Qurtuluş Günü" münasibətilə "Qurtuluş - könüllülərin gözü ilə" adlı yaradıcılıq müsabiqəsinin qalibləri oldu




"15 iyun - Milli Qurtuluş Günü" münasibətilə "Qurtuluş - könüllülərin gözü ilə" adlı yaradıcılıq müsabiqəsinin qalibləri bəlli oldu. Könüllülərimiz böyük xilaskar, Ümummilli Lider Heydər Əliyevin vətən və millət qarşısında xidmətlərini unutmur və onun irsinə sadiqlik nümayiş etdirərək bu müsabiqədə fəal iştirak etmişlər.

Milli Məclisin deputatı Anar Məmmədov karantin rejimi ilə əlaqədar olaraq qalibləri onlayn şəkildə təbrik edib, Milli Qurtuluş Günü münasibətilə arzularını çatdırıb, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Nümayəndələr tərəfindən qaliblərə diplom və hədiyyələr təqdim olunub.

96 saylı Goranboy - Naftalan seçki dairəsi üzrə qeydiyyatda olan fəalların iştirakı ilə "15 iyun - Milli Qurtuluş Günü" münasibətilə "Qurtuluş - könüllülərin gözü ilə" adlı yaradıcılıq müsabiqəsində I və II yerləri məhz Naftalan fəalları tutublar.

Qalibləri təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq.

**REDAKTORDAN**

# Naftalanda Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən aztəminatlı ailələrə ərzaq sovqatları paylanılıb



Naftalanda AzQAC tərəfindən xüsusi karantin rejimi dövründə xüsusi yardıma və qayğıya ehtiyacı olan aztəminatlı ailələrə və təqaüdçülərə ərzaq sovqatları paylanılıb.

Naftalan Şəhər İcra Hakimiyyətinin qaynar xətt xidmətinə və elektron poçt ünvanına daxil olmuş müraciətlər əsasında tərtib edilmiş siyahıya uyğun olaraq ərzaq məhsullarından ibarət sovqatlar Şəhər İcra Hakimiyyətinin və AzQAC-ın Goranboy-Naftalan şəhər bölməsinin əməkdaşları tərəfindən qeyd olunan kateqoriyadan olan 30 ailənin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Möhtərəm Prezident əhalinin bütün zümrələrinə daima qayğı ilə yanaşır



Möhtərəm cənab Prezidentimiz İlham Əliyev may ayının 27də "Qobu 3" yaşayış kompleksinin açılışında məcburi köçkünləri və bütün Azərbaycan xalqını Respublika günü münasibətilə təbrik edərək qeyd etmişdir ki, hörmətli Vitse-Prezident Mehriban xanımın təşəbbüsü ilə 2017-ci ildən başlayaraq "Qobu 1" və "Qobu 2" layihəsi 2018 və 2019-cu illərdə istifadəyə verilmiş, bu gün isə "Qobu 3" layihəsinin açılışına toplaşmışıq. Bu üç şəhərcikdə 20 minə yaxın insan yaşayacaqdır. Çox sevindirici haldır ki, bir neçə il bundan əvvəl çağırışımıza qoşulan özəl sektorlar bu önəmli sosial layihələrin icrasında yaxından iştirak etmişlər. Bu gün koronavirus şəraitində "Paşa Holdinq" şirkəti və digər özəl şirkətlər ötən illərdə olduğu kimi hazırda da öz xeyirxah əməllərini davam etdirirlər. Bu şəhərcikdə həyata keçirilən bütün layihələr, bütün investisiyalar, özəl sektor tərəfindən təmin edilmişdir.

2003-cü ildə Prezident seçkiləri ərəfəsində proqramımın tərkib hissəsində söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Beləliklə də çadır şəhərciklərinin ləğv edilməsi, indiyədək 100-dən çox qəsəbə şəhərcik salınması çox böyük uğurumuzdur. Bu gün də məcburi köçkünlərlə bağlı bütün layihələr yubanmadan uğurla davam etdirilir.

Ancaq Azərbaycan xalqı bilməlidir ki, bunlar məcburi köçkünlər üçün müvəqqəti yaşayış yeridir. Azərbaycan əzəli bütövlüyünü bərpa edəcək, bizim hərbi gücümüz 2016-cı və 2018-ci illərdəki uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpağımız işğalçılardan azad edilmişdir. Cocuq Mərcanlı uğurlu hərbi əməliyyatından sonra məcburi köçkünlərin azad olunmuş torpaqlara qayıtması üçün qısa zamanda orada və Dağlıq Qarabağın ərazisində yerləşən Sıxrax qəsəbəsində böyük şəhərciklər salınmışdır. Hətta bu gün məcburi köçkünlər həmin ərazilərə qayıtmaq üçün növbəyə durmuşlar. Azərbaycanın işğal olunmuş torpaqları azad edildikdən sonra bütün torpaqlarımızda bərpa işləri görüləcəkdir. Biz yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər tərəfindən işğal olunmuş torpaqlarımız, dağıdılmış və məhv edilmiş abidələrimiz işğaldan azad edildikdən sonra bütün binalar yenidən qurulacaq və dağıdılmış tarixi abidələrimizin mövcudluğunu əks etdirən memarlıq tədbirləri görüləcəkdir.

Möhtərəm cənab Prezident həmçinin qeyd etmişdir ki, bu yaxınlarda Dağlıq Qarabağda keçirilən qondarma "prezident seçkiləri"ni heç kim tanımadı. ATƏT-in Minsk qrupunun həmsədrləri, Avropa ittifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bəyanat veriblər ki, bu seçkiləri tanımırlar. Bilirsiniz ki, Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir, bu məsələ birdəfəlik və tam həll olunmalıdır. Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Lakin Ermənistan rəhbərliyi öz populist çıxışlarında bunu inkar etməyə çalışır, burada da riyakarlıq edir, öz xalqını və vasitəçiləri aldadır.

Azərbaycan xalqı bilir ki, Azərbaycanın başında Heydər Əliyev olsaydı heç vaxt bir qarış torpaqda düşmən tərəfindən işğal oluna bilməzdi. Çünki onun dövründə Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda elə bir möhkəm iradəyə sahib idi ki, bir nəfər ermənidə səsini çıxara bilmirdi. 1980-ci illərdə Ulu Öndərlə birlikdə Dağlıq Qarabağda olanda ermənilər Heydər Əliyevin qarşısında fərəqət dururdular, onu salamlayırdılar. Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti, müdrikliyi imkan vermirdi ki, bir nəfər erməni baş qaldırsın. Orada Azərbaycan dilində poeziya günü keçirilmişdir. Erməni, Azərbaycan şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Lakin Heydər Əliyev Moskvada işləyəndə ermənilər və yerli satqınlar anonim məktublar yazırdılar. O vaxt Siyasi Büroya yazırdılar, indi isə Qərb ölkələrinə "danos" yazırlar. O vaxt da indi də danos yazanların bir məqsədi var nəyin bahasına olursa-olsun hakimiyyəti ələ keçirsinlər. 1987-ci ilin noyabrında Heydər Əliyev vəzifəsindən gedəndən iki həftə sonra erməni millətçisi Fransa qəzetində çıxış etdi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Azərbaycan hakimiyyəti isə ermənilərin bu çıxışına biganə qaldılar, heç bir reaksiya vermədilər. Cəmi 3-4 ay keçdi, 1988-ci ilin fevral ayında ermənilər Sumqayıt şəhərində bir dəstə yaradıb bir neçə ermənini öldürdü. Bu təxribatı törədən məhz ermənilər oldu. Bununla da təxribatı törədənlər fürsətdən istifadə edib Dağlıq Qarabağ məsələsini qaldırırdılar. Sovet İttifaqı dağılandan sonra xalqımıza qarşı Xocalı soyqırımı törədildi, 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olundu. Azərbaycan hakimiyyəti öz vətəndaşlarını qoruya bilmədi. Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün xəyanətə əl atdılar. Alınmaz qala olan Şuşanı müdafiə etmək əvəzinə qaçıb gizləndilər. Kəlbəcərin müdafiəsini düzgün qura bilmədilər. Kəlbəcər, Laçın, Şuşa rayonları işğal edildikdən sonra Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yarandı. AXC isə o zamanlarda Gəncəni bombalayırdı. Məhz ondan sonra Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və vəziyyəti stabilləşdirdi. Bu gün vəziyyəti düzəltmək, torpaqları işğaldan azad etmək üçün böyük səylər göstərilir. Ancaq Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu qarşıya qoyulan istənilən vəzifəni müvəffəqiyyətlə icra edə bilər. Rus imperyasının dağılması nəticəsində yaranmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki ilə yaxın yaşadı, müstəqillik elan olundu, dövlət atributları təsis edildi. Milli Ordu, Bakı Dövlət Universiteti yaradıldı, mütərəqqi qanunlar qəbul edildi. Lakin müstəqillik şərti xarakter daşıyırdı, çünki Bakıda söz sahibləri xarici generallar idi, hətta Azərbaycan Xalq Cümhuriyyəti öz addımlarını, dövlət atributları ilə bağlı planlarını onlarla razılaşmalıydılar. Ona görədə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı bizim qədim şəhərimizi Ermənistana vermək olmuşdur. Xalqımız və əsasəndə gənc nəsil bu həqiqətləri bilməlidir. Bunun nəticəsində müstəqillik iki ilə yaxın yaşadı, Azərbaycanın başında duranların bir çoxu ölkəni tərk etdi, müstəqillik əldən getdi.

Bizim 1920-ci ildə endirilən üçrəngli bayrağımızı 70 il sonra Heydər Əliyev Naxçıvanda yenidən qaldırdı. Güclü varsa, bayraq həmişə yüksəklərdə olacaq. O vaxt Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı rəsmi bayraq kimi qəbul edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, onlar da eyni addımı atsınlar. Etmədilər, çünki qorxdular. O vaxt hələ Sovet İttifaqı dağılmamışdır. Qorxdular ki, Moskvadan bunları tənbeh edəcəklər. Ona görə bu tarixi gün həmişə həm qürur mənbəyimiz olmalıdır, həm də daim yadda saxlamalıyıq ki, biz müstəqilliyi əbədi, dönməz etməliyik. Bunu kim etməlidir? Biz - Azərbaycan xalqı, Azərbaycan hakimiyyəti. Ona görə ölkəmizin gücləndirilməsi, mövqelərimizin möhkəmləndirilməsi, ölkəmizdə aparılan islahatlar iqtisadi, sosial sahədə, milli dəyərlərlə bağlı olan tədbirlərimiz, gənclərin milli ruhda tərbiyə olunması sırf bu məqsədi güdür ki, bundan sonra Azərbaycan heç vaxt kiminsə müstəmləkəsi olmasın, həmişə qürurlu, həmişə möhkəm ayaqda dayanan, müstəqil dövlət olsun və xalqımız həmişə azad olsun.

**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər ziyalısı**

# Cənab Prezidentin bu təqdirəlayiq addımı hər bir kəs üçün nümunə olmalıdır

Hər bir sadə Azərbaycan vətəndaşı ölkə başçısının yürütdüyü siyasi kursun fəlsəfəsini anlayır. Prezidentə dəstək verən insanlar bunu nə üçün etdiklərini əminliklə bilirlər.

Koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək məqsədilə yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna fiziki və hüquqi şəxslər könüllü ödəmələr həyata keçirdi.Bu bir daha Azərbaycan xalqının bir olduğunu sübut etdi.

COVID-19 pandemiyası zamanı Azərbaycan epidemiyadan sığortalanmasa da, pandemiyanın pik həddindən qorunmağı bacarıb. İndi hər bir ölkə öz vətəndaşlarını böhrandan az itki ilə çıxartmağa çalışır. Hökumətlərin atdığı addımların səmərəliliyi xalqın gələcək etimadı anlamına gəlir.

Prezident seçildiyi gündən həmişə xalqın yanında olan,əhalinin qayğıları ilə yaşayan Cənab Prezidentimiz əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün hazırlanan sosial paketlərdə bütün təbəqədən olan insanların - işsizlərdən tutmuş sahibkarlara qədər hər kəsin dövlətdən ayrılan payı olduğunu əhaliyə bir daha sübut etdi.

Azərbaycan xalqının sağlamlığını qorumaq üçün ölkəmizdə xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi tətbiq olunub. Biz yaxşı başa düşməliyik ki, sağlam qalmaq üçün özümüzü müvəqqəti olaraq təcrid etməliyik. Qapanma yalnız həftənin 2 gününü əhatə edir.Bu o deməkdir ki,ölkədə kifayət qədər ərzaq ehtiyatımız var.Həmçinin maskaların və tibbi spirtin Azərbaycan Respublikasında istehsalının təşkili vətəndaşlarımızı heç bir narahatçılığın olmamasına səsləyir.

Evdə qalmalıyıq ki, normal həyatımıza sağlam dönək.

Cənab Prezident İlham Əliyevin 03.06.2020-ci il tarixində Tərtər və Ağcabədi rayonlarında bir sıra dövlət əhəmiyyətli obyektlərin açılışında iştirak edərkən tibbi maskadan istifadə etməsi hər birimiz üçün nümunə olmalıdır. Hər bir vətəndaş şəxsi məsuliyyətini hiss etməli, Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməlidir. Yalnız bu yolla, vətəndaş-dövlət birliyi nəticəsində pandemiyaya qalib gələ bilər, ailə üzvlərimizi qoruya bilərik.

ÜST-nın məlumatına görə, MDB məkanındakı vəziyyət bəzi Avropa ölkələrindən daha nikbin görünür. Bölgənin lider dövlətlərindən olan Azərbaycanın pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Azərbaycanda koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi.Bu gün Azərbaycan dövləti yalnız öz mənbələri hesabına pandemiya ilə mübarizə üzrə təsirli tədbirlər planını həyata keçirir, iqtisadiyyatın bütün sahələrinə dövlət dəstəyi verir. İş yerlərinin qorunması, koronavirus pandemiyasından zərər görən fərdi sahibkarlara maddi dəstək, o cümlədən vergi güzəştləri və vergi tətilləri verməklə sahibkarların vergi yükünü yüngülləşdirmək, kreditləri stimullaşdırmaq və ən əsası əhaliyə birbaşa sosial dəstək göstərmək çox önəmlidir.

Qlobal pandemiya zamanı bu göstərici Azərbaycan Respublikasının uğurudur, təbii burada ölkəmizin səhiyyə sistemini də vurğulamaq gərəkir.

Gündən-günə çiçəklənən ölkəmizdə inkişaf edən iqtisadiyyatımızın hər sahəsində əldə olunan nailiyyətlər hər bir Azərbaycan vətəndaşını qürurlandırır və bizləri daha məsuliyyətli olmağa məcbur edir.

Dünyanı vahiməyə salan koronavirus pandemiyasının tüğyan etdiyi bir zamanda möhtərəm cənab Prezidentimizin müdrik rəhbərliyi sayəsində Azərbaycan xalqı tezliklə bu bəladan xilas olacaq!

**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər ziyalısı**

# Naftalan Şəhər İcra Hakimiyyəti başçısının vətəndaşlarla növbəti onlayn qəbulu keçirilib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov 22 iyunda vətəndaşlarla növbəti onlayn qəbulunu keçirib.

Keçirilən növbəti video qəbulda 20-dən çox vətəndaşın müraciəti dinlənilib, onları narahat edən məsələlərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Dinlənilmiş bütün müraciətlər qeydiyyata alınaraq nəzarətə götürülmüşdür. Həlli vacib və mümkün olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq qanuna uyğun formada aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilib.

Video qəbul zamanı şəhər rəhbəri bir daha vətəndaşlara özlərinin və yaxınlarının sağlamlığı üçün karantin rejiminin qaydalarına riayət etmələrini, özünütəcrid tədbirlərinə uyğun davranmaqlarını tövsiyə edib.



Qəbula gələnlər belə çətin vaxtda onların müraciətlərinin dinlənilməsindən məmnunluqlarını ifadə edərək ölkədə, o cümlədən Naftalan şəhərində həyata keçirilən müxtəlif sosial layihələrə, abadlıq-quruculuq işlərinə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildiriblər.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# Azərbaycan - beynəlxalq təşkilatlar üçün etibarlı tərəfdaşdır



İyunun 1-də cənab Prezident İlham Əliyevlə Asiya İnkişaf Bankının Prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Prezident İlham Əliyev ilk olaraq Masatsuqu Asakavanı Asiya İnkişaf Bankının Prezidenti seçilməyi münasibətilə təbrik etdi və fəaliyyətində uğurlar arzuladı. Əminliyini bildirdi ki, onun rəhbərliyi dövründə Azərbaycan və AİB son 20 ildə olduğu kimi, sıx şəkildə işləməyə davam edəcək. Qeyd etdi ki, biz çox güclü tərəfdaşlıq qurmuşuq. Hamımız Asiya İnkişaf Bankının illik toplantısının 2015-ci ildə Bakıda keçirildiyini xatırlayırıq. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlaməti idi və görüş çox uğurla keçdi.

Dövlət başçısı bildirib ki, Asiya İnkişaf Bankının Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür: "Bu vəsait bizə infrastruktura investisiya yatırmağa kömək edib. Biz elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına çox minnətdarıq".

Prezident AİB-in Azərbaycanın ən iri layihələrindən olan qaz boru kəmərinə dəstəyini xüsusi qeyd edib: "Əlbəttə ki, biz Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və dəstəyinizə görə minnətdarıq. Mən deyə bilərəm ki, AİB bu layihəyə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə, həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi tamamlanmağa çox yaxındır, 3 layihə artıq tamamlanıb. Dördüncüsü - Trans-Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlamətidir".

Cənab Prezident böyük əhəmiyyətə malik digər bir məsələni də vurgulayıb. "Biz artıq şimaldan - Rusiyadan daxil olan, Azərbaycan ərazisindən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən başlayaraq Rusiya ilə sərhədə qədər dəmir yolumuzun keyfiyyəti yaxşı deyil. Buna görə də biz qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq. Çünki belə ola bilər ki, bütün yüklərin öhdəsindən gəlmək üçün bizim mövcud infrastrukturumuz kifayət etməyə bilər. Bu gün artıq bizim Rusiya ilə sərhədimizdə tıxaclar var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə Şimal-Cənub dəhlizinin bir hissəsi olacaq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi istərdim. Gələcək kommunikasiya prosesində ola bilsin sizə hansı işlərin görüldüyü və bizim planlarımız ilə bağlı daha ətraflı məlumat veriləcəkdir."

Geniş miqyaslı bütün bu dəstək amilləri tərəflər arasında əməkdaşlığın yüksək səviyyəsindən xəbər verməklə yanaşı, eyni zamanda belə böyük beynəlxalq bankın Azərbaycanı etibarlı tərəfdaş kimi görməsindən irəli gəlir: "Tərəflər suvarma və təhsillə əlaqədar icra olunacaq yeni layihələr üzərində əməkdaşlığı uğurla davam etdirir. Azərbaycanın inkişafı üçün prioritet təşkil edən özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələləri ilə bağlı da Bankın gələcəkdə də ölkəmizə dəstək verməsi əməkdaşlığı yeni və müsbət bir istiqamətə yönəldəcək".

Azərbaycan inkişafdan qalmır, əksinə, inkişaf edir və önəmli dövlətdir. Bütün bunlar qarşılıqlı maraq çərçivəsində həyata keçirilir. Həm də Azərbaycanda sabitlik mövcuddur, hər hansı təsərrüfat sisteminin pozulması ehtimalı yoxdur. Onlar çox dəqiqliklə Azərbaycanın maliyyə-bank sistemini öyrənirlər. Görüşlər zamanı aydın olur ki, nəinki beynəlxalq təşkilatlar, həmçinin digər ölkələr də Azərbaycanın atdığı addımları yüksək qiymətləndirirlər.

Neftin qiymətinin kəskin aşağı düşməsinə baxmayaraq, Azərbaycan çevik qərar qəbul edərək büdcəni yeni reallıqlara uyğunlaşdırmağa nail oldu. Bankın prezidenti Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına COVID-19-la mübarizə fonduna 10 milyon ABŞ dolları, eyni zamanda bu istiqamətdə ehtiyacı olan Qoşulmama Hərəkatı na üzv dövlətlərinə 5 milyon ABŞ dolları ianə etməsinə, ayrılıqda bir sıra ölkələrə yardım etməsinə görə təşəkkür etdi və bu addımları çox yüksək dəyərləndirdi. Asakava pandemiyanın gətirdiyi çətinliklərə baxmayaraq ölkəmizin qısa zaman kəsiyində sosial tədbirləri, biznesi dəstəkləməsini vurğulaması düşünürəm ki, cənab Prezidentin bu çətin və sınaq günlərində apardığı yorulmaz fəaliyyətinə beynəlxalq arenada verilən ən yüksək dəyərlərdən sadəcə biridir. Bundan sonra da tərəflər əvvəlki uğurlu təcrübəyə əsaslanaraq yeni işləri yüksək səviyyədə icra edəcəklər.

Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlar üçün etibarlı tərəfdaşdır. Ölkəmiz həm siyasi, həm iqtisadi, həm də investisiya baxımından çox cəlbedici ölkədir. İnam var, etibar var və bu özünü doğruldub. Azərbaycan birmənalı olaraq regionun lider dövlətidir.

**Adilə BAĞIROVA,**
**Naftalan şəhər ziyalısı**

# Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir



Azərbaycanın koronavirusla bağlı apardığı mübarizə metodları beynəlxalq aləmdə təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırır və həm pandemiyanın ilk mərhələsindəki operativ tədbirlərin görülməsini, məhdudlaşdırıcı addımların atılmasını, həm də sonrakı dövrlərdə vacib qərarlar qəbul etməsini xüsusi qeyd edir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il aprelin 10-da COVİD-19-la bağlı Türk Şurasının və mayın 3-də Qoşulmama Hərəkatının video- konfrans formatında Zirvə görüşlərini keçirməsi, dünyanı bu bəlaya qarşı birgə mübarizəyə səsləməsi, bu beynəlxalq təşkilatlara üzv dövlətlərlə birlikdə çox böyük qərarlar qəbul edilməsinə şərait yaratmışdır. Zirvə görüşlərindəki çıxışlarında cənab Prezident ölkəmizdə koronovirusla mübarizə və xəstələrin müalicəsi istiqamətində həyata keçirilən tədbirlər, Azərbaycanda koronavirus xəstələri ilə bağlı görülmüş işlər barədə görüş iştirakçılarına geniş məlumat vermişdir.

Möhtərəm Prezident bir neçə gün öncə, iyunun 9-da daha 3 modul tipli xəstəxananın açılışı zamanı çıxışında qeyd etmişdir ki, bu gün Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmışdır. Virusun diaqnostikası və müalicəsi ilə əlaqədar 23 laboratoriya fəaliyyət göstərir. İnidiyə kimi ölkə üzrə 349 mindən artıq test keçirilmişdir. Daxili tələbatı ödəmək üçün qısa müddətdə qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanmışdır. Pandemiyaya qarşı mübarizədə sənaye imkanlarından geniş istifadə edilir. Qısa müddətdə tibbi maska, həkimlər üçün xüsusi geyimlər, kombinezonlar, həmçinin dezinfeksiya vasitələri istehsal edən müəssisələr fəaliyyətə başladı və bunun nəticəsidir ki, ölkəmizdə vətəndaşlarımız son zamanlar tibbi maskalardan daha çox istifadə edirlər. Maskadan istifadə bütün qapalı şəraitdə işləyənlər üçün mütləqdir. Mən də bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir-ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Eyni zamanda çıxışında qeyd etmişdir ki, bu modul tipli xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə- təxminən, ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə 2000 çarpayımız olacaqdır və bu koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcəkdir. Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın dördünü özəl sektor öz vəsaiti hesabına inşa edəcəkdir. Dünya miqyasında Azərbaycan nadir ölkədir ki, bütün koronavirusa yoluxan xəstələri tibb müəssisələri müalicə edir. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının əsas səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibb müəssisələrinə qəbul edilir və onlara lazımi köməklik göstərilir. Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və ilkin olaraq Prezidentin ehtiyyat fondundan bu fonda 20 milyon manat vəsaitin ayrılması, sahibkarlar və adi vətəndaşlar tərəfindən fonda 100 milyon manatdan artıq vəsaitin ödənilməsi bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik nümayiş etdirə bilir.

Koronavirus pandemiyasına qarşı aparılan qətiyyətli tədbirlərin nəticəsidir ki, bu gün inkişaf etmiş ölkələrdə ölənlərin sayı Azərbaycanda pandemiyaya yoluxanların sayından çoxdur. Bizdə isə yoluxanların sayı bu gün 8 minə qədərdir. Ona görə ki, bizdəki yanaşma ən düzgün, ən humanist yanaşmadır, yoluxmuş insanlara tibbi xidmətin göstərilməsi yüksək səviyyədədir. Hazırda ölkəmizdə koronavirus xəstələrini müalicə etmək üçün bizim ən qabaqcıl xəstəxanalarımız ayrılıb. Eyni zamanda karantin şəraitində qalan vətəndaşlar üçün də dünya miqyasında Azərbaycanda xüsusi şərait yaradılıb. Çünki, onlar 4-5 ulduzlu otellərdə, Atletlər Kəndində yerləşdirilir. Minlərlə vətəndaşımız xaricdən təxliyə edilərək Azərbaycana gətirilib və bu proses davam etdirilir. Bizim əsas vəzifələrimiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. COVİD-19 dövründə çətin vəziyyətə düşümüş vətəndaşların maddi məsələləri də həll olundu, işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün bu işləri təşkil etməyə 3,5 milyard manat vəsait xərclənib.

Bu çətin şəraitdə Regionun lider dövləti - Azərbaycan sadəcə öz problemlərini həll etmir, eyni zamanda başqa dövlətlərə də yardım edir. Bununla bağlı Azərbaycan 14 ölkəyə onların müraciəti ilə əlaqədar humanitar yardım göstərmiş, ÜST-ün xətti ilə əlavə 15 ölkəyə beynəlxalq təşkilat vasitəsilə yardım etmiş və ÜST-ə Azərbaycan fərdi qaydada 2 dəfə ianə vermişdir. Pandemiya ilə mübarizə bundan sonra da çox ciddi davam etdiriləcək. Heç kimin ağlına gəlməzdi ki, Azərbaycan bu bəla ilə təkbaşına, bu cür, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin.

Çıxışının sonunda Dövlət Başçımız qeyd etmişdir ki, Azərbaycan dövləti, Azərbaycan xalqı gördü ki, həkimlər içdikləri Hippokrat andına sadiqdir, öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Həkimlərin arasında yoluxanlar da var və onlar öz həyatlarını risk altına ataraq xəstələri müalicə edir, onları həyata qaytarırlar. Təsadüfi deyil ki, mənim təşəbbüsüm ilə ölkəmizin və şəhərimizin yeni simvollarından biri olan Alov Qüllələrində məşhur şüar əks olunmuşdur. Azərbaycan həkimlərinə eşq olsun!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın iştirakı ilə 3 modul tipli xəstəxananın açılışı bir daha onu göstərdi ki, ölkəmizdə COVID-19 pandemiyasına qarşı mübarizə qətiyyətlə davam etdirilir. Ölkə rəhbərliyi hadisələrin gedişini nəzarətdə saxlayır, risklər öyrənilir və lazımi addımlar atılır.

**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər ziyalısı**

# Ermənistan hakimiyyətinin tənəzzülü

Ermənistanda koronavirus pandemiyasının sürətlə yayılması Baş nazir Nikol Paşinyanın mövqeyini daha da sarsıtmışdır. Bu gün Ermənistanın Baş naziri növbəti utopik fikri ilə guya virusun sürətlə yayılması səbəbini əvvəlki iqtidarın dövründə səhiyyə sisteminin inkişafına diqqətin yetirilməməsi ilə əlaqələndirməyə çalışır. Paşinyan koronavirusa qarşı mübarizə aparmasına köməklik göstərilməsi üçün dünya ölkələrinə müraciət etməsi bir daha onu göstərir ki, hökumətin durumu olduqca çətindir. Bu çətinlik yalnız Paşinyan və xalq üçün deyil bütün Ermənistan üçün olduğu göz önündədir.

Erməni mətbuatı parlamentdə xüsusilə "Çiçəklənən Ermənistan" partiyasının başçısı Qagik Tsarukyanın tərəfdarlarının fəallaşması Baş naziri və onun tərəfdarlarını müxalifətə qarşı total və qeyri-siyasi hücumlara başlamasına və beləliklə də birbaşa Milli Təhlükəsizlik Xidməti vasitəsilə "Çiçəklənən Ermənistan" partiyasının bütün ofislərində səbəb göstərilmədən yoxlamalar keçirilməsinə bir başa start verilmişdir. 14 iyunda MTX əməkdaşlarının Tsarukyanı ona ittiham irəli sürülmədən saxlanılması və sorğuya çəkilməsi parlamentdəki partiyasının tərəfdaşlarının Təhlükəsizlik Xidmətinin binası qarşısında mitinq keçirməsinə, "Paşinyan get", "Tsarukyan Baş nazir" şüarları səslənməsinə gətirib çıxarmışdır. Mitinqlərdə iştirak edən Ermənistan parlamentinin üzvləri də olmaqla 90 nəfərin saxlanılmışdır. 15 iyunda Ermənistanın Baş Prokurorluğu parlamentə "Çiçəklənən Ermənistan" partiyasının sədri Qagik Tsarukyanın deputat toxunulmazlığının məhrum edilməsi məsələsi ilə bağlı müraciət göndərməsi, iyunun 16-da parlamentdə 87 səslə "Çiçəklənən Ermənistan" və "İşıqlı Ermənistan" partiyalarının parlament fraksiyası iclasda iştirak etmədən Tsarukyanın deputat toxunulmazlığının aradan qaldırılması ilə nəticələnmişdir. Ermənistan hökuməti Tsarukyana qarşı aparılan bu işləri hüquq çərçivəsində hərəkət etdiklərini bildirsə də siyasi partiyalar hökumətin bu hərəkətini siyasi məqsəd daşıdığı kimi qiymətləndirirlər.

Tsarukyan tərəfdarlarının 17 iyunda Ermənistan parlamenti qarşısında etiraz aksiyası keçirməyə cəhd göstərsə də Ermənistan hökuməti bu aksiyanın qarşısının alınması üçün ciddi tədbir görmüş, yüzlərlə insan saxlanılmış, aksiyanı işıqlandıran jurnalistlərə qarşı polis tərəfindən güc tətbiq edilmişdir. Ermənistanda müxalif siyasətçi və jurnalist Mher Yeqizaryanın həbsxanada etdiyi aclığın ardınca vəfat etməsinə də beynəlxalq təşkilatlar heç bir reaksiya verməmişdir. Bununla da bir daha Ermənistan hökumətinin insanların azad toplaşma hüququnu pozmaq üçün atdığı addımlar dünyanın gözü qarşısında baş versə də beynəlxalq təşkilatlar, Ermənistanda fəaliyyət göstərən xarici ölkələrin səfirlikləri, AŞPA, ATƏT-in Medya Azadlığı üzrə nümayəndələri, ABŞ Dövlət Departamenti, ABŞ-ın Ermənistandakı səfiri, beynəlxalq QHT-ləri özlərini elə aparırlar ki, sanki Ermənistanda heç nə baş verməyib.

Hazırda Ermənistanın Baş naziri olan Paşinyan hakimiyyətə gəldiyi gündən tanınmış siyasi və ictimai xadimlərə qarşı geniş şəkildə repressiv tədbirlər keçirməsini və siyasi rəqiblərini bir-bir həbsə ataraq onları "asfalta uzatmaqla" hədələməsi bir daha sübut edir ki, diktator rejimi onu siyasi bataqlığa yəni böhrana aparır. Paşinyanın yeganə məqsədi öz hakimiyyət müddətini uzatmaqdan ibarətdir. Erməni oliqarx Samvel Aleksanyanla qohumluq əlaqələrinin formalaşması və onların əsil niyyətləri isə dövlət büdcəsindən öz şəxsi məqsədləri üçün istifadə etmələridir. Küçə adamından Baş nazir pilləsinə kimi irəliləmiş Paşinyanın amerikalı iş adamı Corc Sorosun təsis etdiyi Soros Açıq Cəmiyyəti (Soros Fondu) tərəfindən dəstəkləndiyi, 2018-ci ildə küçə yürüşlərinin, mitinqlərinin və kütləvi aksiyalarının arxasında hansı qüvvələrin dayandığı Ermənistanda və dünyada hər kəsə bəllidir. Ermənistanda digər düşüncəlilərin, anti-sorosçuların, ictimai-siyasi xadimlərin həbsi də bu günün reallıqlarıdır.

Oradakı hakimiyyət ilə kilsə arasında da ciddi fikir ayrılıqları mövcuddur. Ermənilər yaşadıqları bütün ölkələrdə kilsələr fəaliyyət göstərir və icma üzvləri kilsəyə böyük miqdarda maliyyə yardımı göstərirlər. Bu halda Paşinyanın kilsəyə axan pulun böyük hissəsinə nəzarət etmək istəyi kilsə rəhbərinin qaçması ilə nəticələnmişdir.

Qərbin ikili standartlarının ən bariz nümunəsi 2017-ci ildə Ermənistanda keçirilən parlament seçkisinə olan reaksiyasıdır. Qərb təşkilatlarının rəyində parlament seçkisində azadlıqlara əməl edildiyi göstərilsə də 2019-cu ildə BMT Baş Assambleyasında çıxış edən Ermənistanın Baş naziri Paşinyan 2018-ci ilin dekabrında keçirilmiş parlament seçkilərinə toxunaraq qeyd etmişdir ki, 25 il ərzində ilk dəfə bu seçkilər və onun nəticələri hamılıqla qəbul edilmiş və heç bir siyasi partiya tərəfindən şübhə altına alınmamışdır.

Havadarlarının hərbi-siyasi dəstəyi ilə torpaqlarımızı işğal etmiş və bu işğalı davam etdirmək niyyətində olan Ermənistanın daxili ictimai-siyasi vəziyyəti, ümumi işğalçı ilə bağlı hər şeyin aydın olduğu bir zamanda, hətta ermənistan hökumətinin COVİD-19 pandemiyasına qarşı mübarizədə vətəndaşların səhiyyə və sosial problemlərini həll edə bilmədiyi, müxalifət cəbhəsindən Baş nazir Paşinyana qarşı ciddi ittihamların genişləndirilməsi və Ermənistanda yaşanan bu gərginliklər beynəlxalq ictimaiyyət tərəfindən heç nə olmamış kimi qarşılanır.

Lakin AŞPA-sı və ATƏT-in Media Azadlıq üzrə nümayəndələri digər ölkələrdə və xüsusən də Azərbaycanda baş verən ən xırda məsələlərə reaksiya verməklə dünya ictimaiyyəti tərəfindən ölkəmizdə aparılan sosial-iqtisadi inkişafın sürətləndirildiyi, əhalinin aztəminatlı təbəqəsinin sosial şəraitinin yaxşılaşdırıldığı, ÜST tərəfindən dünyanı bürüyən koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda aparılan işlərin yüksək qiymətləndirildiyi, Azərbaycanın könüllü olaraq ÜST-ə ianə verməsini və 29 ölkəyə humanitar yardım göstərməsini və digər məslələrə qeyri-obyektiv yanaşması yalnız təəssüf doğurur.

**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər ziyalısı**

# Ağ xalatlı qəhrəmanlar




Xalqımızın fiziki və mənəvi sağlamlığının yüksək səviyyədə təmin olunması həkimlərdən və tibb işçilərindən böyük məsuliyyət tələb edir. Azərbaycanda tibbin inkişafı daha çox XX əsrlə bağlıdır. Tibb peşəsi olduqca məsuliyyətli və çətindir. Bu qədim sənəti seçən insan daim fövqəladə vəziyyətlərə hazır olmalı və insanlara yardım etmək hissindən həzz almalıdır. Əlbəttə ki, bu insanlığa dərin məhəbbət tələb edir. Həyat üçün məsuliyyət daşımağa hazır olmaq lazımdır.

Tibb işçiləri həyat həqiqətlərinə güclü inamı, nəcibliyi, mənəvi zənginliyi, saflığı ilə seçilirlər. Xeyirxahlıq, qayğıkeşlik, seçdikləri peşələrində belə onlar üçün ali məqsədə çevrilir. Bu gün xəstələrlə tibb işçiləri arasında bir qarşılıqlı inam var. Bunu hamı özünün müqəddəs işi, borcu bilir. Xəstənin həkimə inamı artıq ilk başlanğıcda xəstəliyin sağalmasının 50 faizi deməkdir. Çünki insanın özünə inamı onu bütün çətinlikləri keçməyə səfərbər edir. Ona görə də müdriklərimiz deyib ki, "inam həyatın sərmayəsidir".

Azərbaycan dövləti əhalinin səhhəti naminə, ən ağır xəstələrin, həyatı dərman təminatından asılı olan insanların müalicəsinə yardım etmək üçün xüsusi dövlət proqramları qəbul edir. Məhz bunun nəticəsində həmin xəstəliklərdən əziyyət çəkən insanların həyat keyfiyyəti yaxşılaşır, ömrü uzanır. Dünya ölkələri arasında əlaqələrin gündən-günə genişləndiyi, internet, sosial şəbəkələr vasitəsilə istənilən yerdən məlumat almaq imkanının olduğu bu şəraitdə hər kəs Azərbaycan səhiyyəsini, tibb müəssisələrinin maddi-texniki təchizatını dünyanın ən qabaqcıl səhiyyə sistemləri ilə müqayisə edə bilər və onların heç birindən geri qalmadığını, bir sıra hallarda isə hətta onları üstələdiyini görə bilər.

Səhiyyəmizin inkişafı ilk növbədə məhz bu mütəxəssislərdən - həkimlərdən və digər tibb işçilərindən asılıdır. Çünki xəstəni sağaldan nə səliqəli xəstəxana binası, nə rahat palatalar deyil. Müasir diaqnostik cihazlar, innovasion texnologiyalar yalnız savadlı həkimin əlində şəfa alətinə çevrilir. Heç bir avadanlıq tibb işçisinin biliyini və bacarığını, xəstəyə həssas və diqqətli münasibətini əvəz edə bilməz.

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Möhtərəm Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən cənab Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılır. Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır.

Dünyanın hazırda bir nömrəli probleminə çevrilən koronavirus (COVID-19) infeksiyası ilə mübarizədə əsas güc səhiyyə işçilərinin üzərinə düşür. Onlar pandemiya dövründə həyatlarını riskə ataraq böyük əzmlə virusa yoluxmuş şəxsləri müalicə edirlər. Bu fədakarlar sırasında Naftalan şəhər Mərkəzi Xəstəxanasının həkimləri və tibb işçiləri də var. Bu gün hər bir Azərbaycan vətəndaşı üçün nümunə olmalıdır, hər birimiz onların əməyini yüksək qiymətləndirməliyik. Hər birimiz xəstə yaxınlarının ümid yerinə çevrilən həkimlərin və tibb işçilərinin koronavirus infeksiyası ilə mübarizə tədbirlərində gördükləri işlərin danılmaz olduğunu, pandemiya ilə mübarizədə uğurun əldə edilməsində heç şübhəsiz ki, həkimlərin, tibb işçilərinin böyük rolu olduğunu bilməliyik. Çünki koronavirus kimi təhlükəli virusa qarşı mübarizədə ön cəbhə "əsgərlərimiz" həkimlərimiz və tibbi xidmət personalıdır. Onlar mürəkkəb şəraitdə gərgin əmək sərf edərək sutka ərzində demək olar ki, fasiləsiz çalışırlar.

Peşələri üçün canından belə keçməyə hazırdırlar. Hər gün işdən yorğun çıxsalar da, çalışırlar ki əhvalların yüksək tutsunlar, ruhdan düşməsinlər, ümidlərini itirməsinlər, üzlərindəki təbəssümü həmişə qoruyub saxlasınlar. Bu gün insanların şəfa tapmasına yardım etdikləri üçün qürur duyurlar. Könüllü olaraq gəlib və heç də peşman deyiləm deyən tibb işçilərimizin sayı bu gün həddindən artıqdır. İnsanlara kömək, yardım etdikcə, şəfa tapan xəstələri gördükcə özlərini xoşbəxt hiss edirlər.

Onu da unutmaq olmaz ki, əgər bizi gözəgörünməz bir qüvvə idarə edirsə, yerdə də insanların saglamlığının keşiyində duran tibb işçilərimiz vardır. Biz hər zaman tibb işçilərinə hörmətlə yanaşmalı, onların peşəsini yüksək dəyərləndirməliyik. Bu gün Azərbaycanda öz sənətinin sirlərinə dərindən bələd olan, insanların sağlamlığının keşiyində duran minlərlə tibb işçisi var.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev xalqımızın sağlam yaşamasına insan amilinə, insan kapitalına həmişə böyük üstünlük verir. Cənab Prezidentimiz bu mövqeyi ilə fəxr edirik. Tibb işçilərinin pandemiya dövründəki gərgin və yorulmaz fəaliyyətlərini bir daha yüksək dəyərləndirən möhtərəm Prezidentimiz çıxışlarının birində vurğulayıb: "Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır". Bu sözlər tibb işçilərinin məsuliyyət hissini daha da artırır və qururlandırır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevanın koronavirusla mübarizə tədbirlərini şəxsi nəzarətlərində saxlamaqları və düzgün istiqamət verməkləri sayəsində Azərbaycan həkimlərinin tezliklə bu mübarizədən qalib çıxacaqlarına inanırıq.

Peşə bayramı münasibətilə Azərbaycandakı bütün tibb işçilərini təbrik edir, onlara hər zaman olduğu kimi Hippokrat andına sadiq olmalarını diləyirəm.

**İlhamə HÜSEYNOVA,**
**Naftalan şəhər Mərkəzi Xəstəxanası PHŞ-ın həkimi**

# Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşü beynəlxalq ictimaiyyətdə Azərbaycan Prezidentinin daha bir təşəbbüsünün uğuru kimi qiymətləndirildi

Dünyada 120 ölkəni özündə birləşdirən BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edən dövlətimizin təşəbbüsü ilə hərəkata üzv dövlətlərin koronavirusa qarşı mübarizə üzrə təmas qrupunun yaradılması və videokonfrans formatında Zirvə görüşünün keçirilməsi, cənab Prezidentin koronavirusa qarşı mübarizədə dövlətimizin çevik reaksiyasını bu tribunadan izah etməsi, hərəkat üzvü dövlətlərlə öz uğurlu təcrübəsini bölüşməsi, bu sahədə onlarla əməkdaşlıq etməyə hazır olduğunu bildirməsi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Qoşulmama Hərəkatının Zirvə görüşündə koronavirus təhlükəsi zamanı tarixdə ilk dəfə Qoşulmama Hərəkatı ilə Avropa İttifaqının bir araya gəlməsi, BMT Baş Assambleyasının sədrinin, digər beynəlxalq təşkilatların rəhbərlərinin, BMT baş katibinin və Avropa İttifaqının ali nümayəndələrinin Zirvə görüşünə videomüraciətlər göndərməsi Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qətiyyətinə, iradəsinə və humanistliyinə olan etimadın bariz nümunəsidir.

Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı təşviq etməsi dünya birliyi tərəfindən qəbul olunur. Habelə, Zirvə görüşündə bu qədər ölkənin iştirakı Azərbaycan Prezidentinin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsidir. Qəbul olunmuş bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezidentimizə təşəkkürün öz əksini tapması bunun bariz göstəricisidir.

Azərbaycan bundan öncə də videokonfrans formatında Zirvə görüşü keçirmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilmişdir. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirmişdir.

Türk Şurasının Zirvə görüşündə çıxış zamanı cənab Prezident haqlı olaraq vurğuladı ki, "pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi olduq". Belə bir təhlükənin hər kəsin qapısını döydüyü anda Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi.

Dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi Azərbaycan koronavirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək vermişdir. Azərbaycan koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır.

Koronavirus infeksiyası hər bir dövləti ciddi sınaq qarşısında qoymuşdur. Azərbaycan bu sınaqdan layiqincə çıxmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus mart ayının 23 də Prezidentimizə ünvanladığı məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət vermişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Prezident İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlər sayəsində bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər çərgəsində gəlir. Eləcə də, effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur. Azərbaycan Prezidentinin yaranmış vəziyyətin sosial-iqtisadi sferaya çətinlik yaratmaması ilə bağlı verdiyi qərarlar da Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən müsbət qarşılanmışdır.

Azərbaycan Respublikası Prezidentinin koronavirusla bağlı verdiyi bütün tapşırıqlar Naftalan şəhərinin əhalisi tərəfindən çox böyük razılıqla və minnətdarlıqla qarşılanmışdır. Xüsusi karantin rejimi dövründə virusun yayılmasının qarşısını almaq üçün əhali arasında yüksək səviyyədə maarifləndirmə tədbirləri keçirilmişdir. İnsanlarımız virusa qarşı mübarizə aparmağa çağırılmışdır. Ona görə də şəhər əhalisi arasında koronavirusdan ölüm halı qeydə alınmamışdır.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Rəqəmsal Texnologiyaların tətbiqində Azərbaycanın rolu

Dünyada ən iri transmilli şirkətlərdən biri də "Microsoft" dur ki , Azərbaycanla sıx əməkdaşlıq edir. Azərbaycan dövlətinin başçısı cənab Prezidentimiz İlham Əliyevin şəxsi nüfuzuna, onun dünyanın sayılıb-seçilən liderlərindən biri olması məhz xarici iri, şirkətlərinin ölkəmizə marağını daha da cəlb edici edir. Bir sıra dövlətin, nüfuzlu şirkətin rəhbər şəxsləri ilə onlayn-videokonfranslar formatında görüşlərin keçirilməsi Azərbaycanın bu yöndəki əzmindən, əməkdaşlıq, tərəfdaşlıq niyyətlərindən xəbər verir. Əvvəllər şirkət rəhbərliyinin Prezident İlham Əliyevlə, eləcə də hər iki tərəfin mütəxəssislərinin bir-biri ilə görüş və müzakirələri olub. Bu dəfəki görüş isə dünyada yaranmış pandemiya vəziyyəti ilə əlaqədar videokonfrans şəklində keçirilib. Tədbirdə toxunulan mövzulardan birincisi, təbii ki, koronavirus pandemiyası ilə mübarizə məsələsi olub. "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq ölkəmizdə bu istiqamətdə aparılan çoxşaxəli işi yüksək dəyərləndirib.

Möhtərəm Prezident cənab İlham Əliyev vurğulayıb ki, "Baxmayaraq, əlbəttə ki, bu pandemiya bizim ənənəvi həyat tərzimizə ciddi şəkildə müdaxilə edir, bununla belə biz özümüzü reallığa uyğunlaşdırmalıyıq. Bizim pandemiyanın öhdəsindən gəlməklə bağlı səylərimiz barədə sözlərinizə görə sizə təşəkkür edirəm. Həqiqətən də, Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə adlandırılıb. Vəziyyət nəzarət altındadır. Eyni zamanda biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk".

Azərbaycan "Microsoft"la bir çox sahələrdə, o cümlədən açıq açar infrastrukturu ilə mübarizə, kibertəhlükəsizlik, informasiya texnologiyalarının təhsildə tətbiqi və internet əşyalar texnologiyası və kadrların təlimi kimi sahələrdə sıx əməkdaşlıq edir. Şirkətin Azərbaycanda nümayəndəliyi də uğurla fəaliyyət göstərir.

Dünyanın nüfuzlu şirkətlərinin Azərbaycanla əməkdaşlığa yüksək marağı var. "Microsoft" şirkətinin rəhbərliyində təmsil olunmuş şəxslərin ölkəmiz haqqında yüksək fikirləri, əməkdaşlığın perspektivləri, irəli sürdüyü təkliflər xüsusi əhəmiyyətə malikdir. Şirkətin Azərbaycandakı təmsilçiliyi 2005-ci ildən fəaliyyət göstərir. "Microsoft - Azərbaycan"ın əsas məramı ölkəmizin tam potensialının həyata keçirilməsinə dəstək göstərməkdir. Başlıca hədəf "Microsoft Korporasiyası"nın ən son məhsul və həllərinin daha səmərəli tətbiqi vasitəsilə Azərbaycanın strateji inkişaf məqsədlərinə çatmasına xidmət etməkdir.

F.Roq "Microsoft"un Azərbaycanın təxminən 1 milyon tələbəsi üçün əlaqə qura bildiyini söyləyib. Həmçinin bildirib ki, digər ölkələrdə üzləşdiyi problem evlərdəki qurğuların sayının məhdud olmasıdır: "Anlayıram ki, bu, sizdə problem deyil. Bu isə yaxşı xəbərdir. Çox ölkələr, əslində, yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayırlar. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə uğrunda mübarizə aparırlar. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir". "Microsoft"un süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək və Azərbaycan dilində tərcümə xidmətinin istifadəyə verilməsini şirkətin özü də səbirsizliklə gözləyir.

"Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər"-deyə, dövlət başçımız vurğulayıb.

Bu görüş bir daha Azərbaycanın modernləşməkdə, yeniləşməkdə, yeniliklərin tətbiqində və yayılmasında, səmimi tərəfdaşlıqda nə qədər israrlı olduğunu hər kəsə göstərdi. Çünki inkişaf, tərəqqi yeniliklərsiz, yeni texnologiyalarsız və səmimiyyət üzərində qurulan əməkdaşlıq olmadan mümkün deyil. Azərbaycan Respublikası Prezidentinin iradəsi, qətiyyəti, yeniliklərə açıq və səmimi tərəfdaş olması sayəsində məhz bunlara nail olur, uğurlara, irəliləyişlərə imza atır. Bu cür görüşün keçirilməsi, önəmli qərarların alınması, razılıqlara gəlinməsi Azərbaycanımızın bundan sonrakı inkişafına, tərəqqisinə, yeniləşməsinə mütləq şəkildə öz töhfələrini verəcək. Belə görüşlər sayəsində Azərbaycanda İKT alətləri daha da optimallaşacaq. Həmçinin innovativ alətlərin tətbiqi sürətlənəcək.

Sonda möhtərəm Prezidentimiz - bu tərəfdaşlığın böyük potensiali, böyük gələcəyi var, və pandemiyadan sonra Bakıda görüşmək ümidi ilə söyləyərək görüşə yekun vurub.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər sakini**

# Naftalan şəhərində əkin-biçin sahələrinin yanğından mühafizəsi ilə bağlı maarifləndirmə işləri aparılır



Qaşaltı Qaraqoyunlu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi və Qaşaltı Qaraqoyunlu bələdiyyəsi tərəfindən Qaşaltı Qaraqoyunlu və Qasımbəyli kəndlərinin fermerləri ilə əkin sahələrində maarifləndirmə işləri aparılıb. Əkin sahələrinin sahibləri ilə maarifləndirici söhbətlər aparılaraq sahələrin yandırılmasının həm ekoloji, həm də aqrotexniki qaydalar baxımından zərərli olduğu və torpağın münbitliyinin azalmasına, üzvi maddələrin, mikroflorasının məhv olmasına gətirib çıxardığı, nəticə etibarı ilə kənd təsərrüfatına yararlı torpaq sahələrinin üst münbit qatının korlanmasına, əkin yerlərində torpaqların qida maddələri balansının pozulmasına gətirib çıxardığı bildirilmişdir.

Həmçinin, əkin sahələrinin, qurumuş kol-kosun yandırılması yaxınlıqda yerləşən digər sahələrdə, yaşayış məntəqələrində yanğın təhlükəsi yaratmaqla yanaşı, mühəndis kommunikasiya sistemlərinin sıradan çıxmasına səbəb olduğu və yanğın təhlükəsizliyi qaydalarının pozulmasına görə müvafiq inzibati cərimələr nəzərdə tutulduğu onların diqqətinə çatdırılmışdır.

**REDAKTORDAN**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələri ilə videokonfrans keçirib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələrin iştirakı ilə video-konfrans keçirib.

Şəhər rəhbəri ilk növbədə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirusa qarşı mübarizə sahəsində həyata keçirilən geniş miqyaslı tədbirlərdən danışıb və bu işlər nəticəsində Azərbaycanın pandemiya ilə mübarizə sahəsində ən uğurlu nəticələr əldə edən ölkələr sırasında dayandığını qeyd edib.





Sonra xüsusi karantin rejimində məhdudiyyətlərin bir qisminin yumşaldılması barədə Operativ Qərargahın qərarından irəli gələn məsələlərə və şəhərdə koronavirus pandemiyası ilə mübarizə çərçivəsində görülən tədbirlərə toxunub.

Şəhər rəhbəri bir daha yeni qərarda nəzərdə tutulan qaydaların inzibati ərazi dairələrində əhaliyə çatdırılması barədə göstəriş verib. Xüsusən də sanitar-epidemioloji tədbirlərin icrasına nəzarətin daha da gücləndirilməsi və sakinlərlə yaxından, düzgün iş qurulması, vətəndaşların qayğıları və tələbləri ilə daha ciddi maraqlanılması barədə tapşırıq verib.

İcra başçısı karantin rejiminin yumşaldılmasına baxmayaraq profilaktik tədbirlərin davam edəcəyini bildirərək, bu işdə səylərin artırılmasını və qarşıya çıxa biləcək hər hansı çətinliklər barədə Şəhər İcra Hakimiyyətində yaradılmış Xüsusi Qərargaha dərhal məlumat verilməsini nümayəndələrin nəzərinə çatdırıb.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# Naftalanda koronavirusa (COVID-19) qarşı dezinfeksiyaedici tədbirlər davam etdirilir



Kurort şəhəri Naftalanda tətbiq olunmuş karantin rejiminin yumşaldılmasından sonra da əhalinin sağlamlığının qorunması, koronavirus infeksiyasının yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması və bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədi ilə zəruri tədbirlər görülməkdədir.

Şəhərin küçə və yolları texnikalar vasitəsilə dezinfeksiyaedici kimyəvi maddələrlə yuyulub. Həmçinin çoxmənzilli yaşayış binalarının ümumi istifadə yerləri, söhbətgahlar, parklarda, ticarət və xidmət obyektlərində dezinfeksiya işləri aparılıb.

Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına uyğun olaraq şəhərdə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün zəruri tədbirlərin görülməsi davam etdirilir.

**REDAKTORDAN**

## 2020-ci ilin ikinci yarısı üçün NAFTALAN QƏZETİNƏ ABUNƏ YAZILIŞI DAVAM EDİR

Biz bir daha oxucularımıza müraciət edirik. "Naftalan" qəzeti daim Sizin köməyinizə arxalanıb, şəhərin yeganə informasiya vasitəsi olaraq maliyyə durumunun ən çətin vaxtlarında nəşrini dayandırmayıb.

Bazar iqtisadiyyatı şəraitində qəzetin dövriliyinin artması və yüksək poliqrafik səviyyəsi Sizin dəstəyinizdən asılıdır. Biz yenə daimi oxucularımız olan ziyalılara, gənclərə, fəallara, bir sözlə, qəzetin təəssübünü çəkən insanların köməyinə ümid edirik. Abunə kampaniyasının başlanması ilə əlaqədar bir daha xatırladırıq ki, qəzetimiz abunə qiymətinə görə ən ucuz qəzetdir. Siz ürəyinizcə olan mövzuları "Naftalan"ın səhifələrində tapıb oxuya bilərsiniz.

Abunə yazılışı redaksiyada və "Kapitalbank"ın Naftalan filialında aparılır.

Qəzetin abunə qiymətləri aşağıdakı kimidir:

İllik - 20 manat.
Yarımillik - 10 manat.
Abunə yazılmağı unutmayın!

# Ordumuz torpaqlarımızı düşməndən azad etməyə qadirdir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. İyunun 26-sı – Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün ölkəmizdə ümumxalq bayramı kimi qeyd edilir. Bu günün bayram günü kimi tarixə salınmasının müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevdir.

Ölkəmizdə ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlar aparılıb, hələ də aparılmaqdadır. Hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Orduya çağırış, fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Son illərdə silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması möhtərəm cənab Prezidentin öz vədinə sadiq olduğunu təsdiq edir. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Həyata keçirilən uğurlu islahatlar nəticəsində respublikamızın iqtisadi qüdrətinin ildən-ilə güclənməsi möhtərəm Prezident cənab İlham Əliyevə bu sahədə ardıcıl tədbirlər həyata keçirməyə, hərbi xərcləri durmadan artırmağa imkan vermişdir. Dövlət başçısı ölkəmizdə hərbi potensialın daha da gücləndirilməsi, bu prosesdə qabaqcıl dövlətlərin təcrübəsinə istinad olunması kimi mühüm məsələləri diqqət mərkəzində saxlamışdır.

Günün müxtəlif vaxtlarında, istənilən iqlim şəraitində irimiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini dəfələrlə nümayiş etdirir. Azərbaycan əsgəri quruda, havada və dənizdə Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir, Ulu Öndərimizin ideyalarına sadiqdir, Vətənin hər bir çağırışına hər an hazırdır. Bu gün xalq ilə ordunun sağlam və monolit birliyi yaranıb. Xalq öz ordusuna inanır, onun gücünə güvənir. Şəhid ailələri, müharibə veteran və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunub. İnanırıq ki, bu ordumuzu sevindirməklə yanaşı, məsuliyyətini də daha da artırır.

Ən müasir silahlarla, döyüş texnikaları ilə təmin edilən Silahlı Qüvvələrimizi peşəkar zabit kadrları ilə komplektləşdirən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, Cəmşid Naxçıvanski və Heydər Əliyev adına Hərbi Liseylərdə tədris proqramları yenilənib, zənginləşib ki, bu da zabit kadrları hazırlığının NATO standartlarına uyğunluğunu təmin edir. Silahlı Qüvvələrin Hərbi Akademiyasında fəaliyyətə başlayan adyunktura ordu quruculuğunun elmi əsaslarla davam etdirildiyinə inandırıcı zəmanətdir. Azərbaycan Ordusu beynəlxalq terrorizmə qarşı mübarizədə fəallıq göstərir. Ölkənin Sülhməramlı Qüvvələri Əfqanıstandakı koalisiya əməliyyatlarında iştirak edir.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.




Cənab Prezidentin qətiyyətlə qeyd etdiyi kimi, Azərbaycan heç vaxt - nə bu gün, nə on ildən sonra, nə də yüz ildən sonra Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək razılaşmaya getməyəcəkdir. "Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz Azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq", - deyə dövlətimizin başçısı bəyan etmişdir.

Xalqımız Silahlı Qüvvələrimizin Ali Baş Komandanının möhkəm iradəsi və səyi nəticəsində ölkəmizin ərazi bütövlüyünün tezliklə təmin olunacağına və üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda dalğalanacağına əmindir. Silahlı Qüvvələrimiz bu şanlı və şərəfli vəzifəni yerinə yetirməyə daim hazırdır. Bütün qoşun növlərinin şəxsi heyətinə uzaqda olmayan qələbə günü naminə böyük uğurlar və zəfər arzulayırıq.

**Sədi MUSAYEV,**
**Naftalan şəhər sakini**

# "Naftalan" qəzetinin reklam xidmətləri

**Əziz həmvətənlər, diqqətinizə çatdırmaq istəyirik ki, siz doğma qəzetimizdə hər cür elan, reklam yerləşdirə bilərsiniz.**

**Göstərilən xidmətlərin haqqını siz köçürmə, yaxud nağd yolla (sizə sərf edən qaydada) ödəyə bilərsiniz. Əziz həmvətənlər, "Naftalan" qəzetinin reklam xidmətlərindən istifadə edin.**

# Naftalan şəhəri üzrə taxıl biçinin gedişatı haqqında məlumat

Naftalan şəhəri üzrə dənlilərin və dənli paxlalı bitkilərin kütləvi biçini başa çatmaq üzrədir. 2020-ci il iyun ayının 16-na olan məlumata əsasən payızlıq və yazlıq dənlilər və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 236,8 hektar sahənin 214,8hektarı və yaxud 90,7 faizi biçilərək məhsul yığılmışdır. Toplanmış məhsul 558,5 ton təşkil etmiş və məhsuldarlıq 26,0 sentnerə bərabər olmuşdur. Yığılmış məhsulun hamısı arpa bitkisidir.

**Elcan BAĞIROV,**
**Naftalan şəhər Statistika İdarəsinin rəis əvəzi**

# Təbrik edirik!



**Cəfərova İlknur Namiq qızının 4 yaşı tamam olması münasibətilə babası Rövşən, nənəsi Nazilə, atası, anası, qardaşı Balaca Rövşən, bibisi, bibisi oğlanları dostlar və tanışlar təbrik edirlər. İlknurun sağlam böyüməsi, həyatda xoşbəxt günlər görməsini arzulayırlar.**

**İlknur, hər zaman sevdiklərinin və səni sevənlərin ətrafında olasan. Xoşbəxt, canın sağlam və yolun açıq, uğurlu olsun!**

# İTMİŞDİR

Naftalan şəhər Qaşaltı Qaraqoyunlu kənd sakini, Yusifov Əjdər Yusif oğluna məxsus JN-76 №-li Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

**REDAKTOR:**
**Əliyeva Aytən Həbib qızı**

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Heydər Əliyev prospekti 77.
Telefon: (022) 352-14-55
Naftalan@mail.az

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500